

# Firudin Məhəmmədəli oğlu Hacıyev (1936-2020)

Tanınmış neftçi alim, neft-qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı, neftli-qazlı hövzələrin paleotektonik, paleocoğrafi və struktur-tektonik inkişafı sahəsində əvəzsiz elmi töhfələri olmuş Firudin Məhəmmədəli oğlu Hacıyev 27 iyun 2020-ci ildə uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.

Firudin Hacıyev 1936-cı il aprel ayının 26-da Azərbaycan Respublikası Goranboy rayonunun Xanqərvənd kəndində anadan olmuşdur.O, 1953-cü ildə Naftalan şəhər orta məktəbini bitirib, Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş və 1958-ci ildə institutu dağ mühəndisi-hidrogeoloq ixtisası üzrə bitirmişdir.

Firudin Hacıyev əmək fəaliyyətinə "Azərbaycan elmi-tədqiqat hidrotexnika və meliorasiya" institutunda kiçik elmi işçi kimi başlamış, 1960–1961-ci illərdə Bakı Yod zavodunda böyük mühəndis vəzifəsində işləmişdir. 1962-ci ildə aspiranturaya daxil olmuş və 1968-ci ildə "Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" ixtisası üzrə elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi, 1990-cı ildə isə elmlər doktoru adına layiq görülmüşdür.

Firudin Hacıyev 1964–1968-ci illərdə Azərbaycan Neft Sənayesi Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun "Geokimya və mədən suları" laboratoriyasında mühəndis, kiçik elmi işçi, böyük elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. 1978–1980-ci illərdə "Neft və qaz yataqlarının hidrogeologiyası və hidrokimyası" laboratoriyasında baş elmi işçi kimi fəaliyyət göstərmiş, sonra laboratoriya müdiri vəzifəsinə irəli çəkilərək 2015-ci ilədək həmin vəzifədə işləmişdir.

Nəşr olunmuş 130 elmi işin, o cümlədən 114 tezis və məqalənin, 3 ixtira, 4 monoqrafiya, 5 regional xəritənin müəllifidir.

Firudin Hacıyev neft və qaz yataqlarının geologiyası, axtarışı, kəşfiyyatı, işlənməsi, hidrogeologiyası, yeraltı sulardan iqtisadiyyatın müxtəlif sahələrində istifadə edilməsi sahəsində tanınmış mütəxəssis-alimdir. O, neft hidrogeologiyası sahəsində yeni elmi məktəbin yaradılmasına nail olmuşdur. Onun elmi tədqiqatlarının nəticələri respublikanın, o cümlədən bir sıra xarici ölkələrin geoloqları tərəfindən tanınmış və geologiya elminin inkişafında layiqli yer tutmuşdur.

Alimin apardığı elmi tədqiqatların nəticəsində ilk dəfə olaraq:

- Azərbaycanın neft və qaz yataqlarının əmələ gəlməsinin hidrogeoloji şəraitləri və yerləşmə qanunauyğunluqları müəyyən edilmiş;
- Qara dəniz-Cənubi Xəzər regional gömülmə zonasının dərinlik quruluşu xəritəsi tərtib olunmuş, neftqazlılığın hidrogeoloji və hidrokimyəvi əlamətlərinin hərtərəfli təhlili aparılmış, onların ən çox informasiyaya malik olanları seçilmiş, neft və qaz yataqlarının kəşfiyyatının səmərəliyini artırmaq üçün tətbiqi tövsiyə edilmişdir. Bu məqsədlə neft və qaz yataqlarının, kəşfiyyat sahələrinin hidrogeoloji modelləri yaradılmışdır.
- Neft-qaz yataqlarının işlənməsində laylara suvurma prosesinin səmərəliyini artırmaq və ona nəzarət etmək məqsədilə yeni hidrogeokimyəvi metod hazırlanmış və istehsalatda tətbiq edilmişdir.
- Neft-qaz yataqlarının yeraltı suları hərtərəfli öyrənilmiş, bu suların tərkibində olan külli miqdarda qiymətli elementlərin və komponentlərin iqtisadiyyatda istifadə edilməsi üçün təkliflər hazırlanmışdır.

Firudin Hacıyevin apardığı tədqiqatlar Cənubi Qafqazda, o cümlədən Azərbaycanda neft-qaz yataqlarının axtarış və kəşfiyyat istiqamətlərinin, o cümlədən dağlararası çökəkliklərdə qeyri-antiklinal

tipli yataqların axtarış metodlarını elmi əsaslandırılmasına, Xəzər dənizi akvatoriyasında neft-qaz yataqlarının axtarış və kəşfiyyat üsullarının təkmilləşməsinə, 4–7 km dərinliklərdə neft qaz yataqlarının axtarış və kəşfiyyat perspektivliyinin səmərəliyinin artırılmasına, Cənubi Qafqazın neft-qazlılığının qiymətləndirilməsinə, "Azneft" İstehsalat Birliyi müəssisələrinin fəaliyyətlərinin geoloji mühitə mənfi təsirlərini azaltmaq üçün tövsiyələrin işlənib hazırlanmasına imkan vermişdir.

F.M. Hacıyev Azərbaycan-Amerika Neftçi geoloqlar cəmiyyətinin, Azərbaycan Milli Geofizika komitəsinin üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının akademikidir. Azərbaycan Neft Akademiyasında "Neft-qaz mədən geologiyası" və "Neft-qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı" kafedralarında TO 10500 - neft və qaz geologiyası ixtisası üzrə Bakalavr buraxılış işlərinin müdafiəsi məqsədilə təşkil olunmuş Dövlət Attestasiya Komissiyasının sədri, Bakı Dövlət Universitetində "Hidrogeologiya" ixtisası sahəsində Magistr dissertasiya işlərinin müdafiəsi üzrə "Dövlət Attestasiya Komissiyasının üzvü, Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer haqqında elmlər üzrə Ekspert Şurasının sədr müavini olmuşdur.

Alim 2002-ci ildə nəşr olunmuş "Azərbaycanın neftli-qazlı ərazilərinin tektonik rayonlaşdırılması", 2003-cü ildə isə - "Azərbaycan neft-qaz-geoloji rayonlaşdırma və neftlilik-qazlılıq perspektivi" xəritələrinin redaktoru və tərtibatçılarından biridir.

O, "Углеводородные ресурсы Азербайджана в свете новых геолого-геофизических, геохимических и гидрогеологических данных и перспективы их освоения" dövlət proqramının layihəsinin yerinə yetirilməsində fəal iştirak etmişdir.

Firudin Hacıyev "Azərineft" İstehsalat Birliyinin və Azərbaycan Respublikası neft və qaz sənayesi Həmkarlar təşkilatının, Bakı şəhəri Nərimanov rayon İcra hakimiyyətinin Fəxri Fərmanları, keçmiş SSRİ neft nazirliyinin və SSRİ neft sənayesi işçiləri Həmkarlar təşkilatının Mərkəzi komitəsinin Rəyasət Heyətinin "Neft sənayesi əlaçısı" nişanı, "Əmək veteranı" medalı ilə təltif olunmuşdur.

O, elmi-tədqiqat işləri ilə yanaşı, institutun elmi-ictimai işlərində də fəal iştirak etmiş, uzun illər ərzində institutun geoloji şöbəsi nəzdində elmi-texniki cəmiyyətə sədrlik etmiş, 2008–2012-ci illərdə isə prezidenti seçilmişdir. 2005-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən Respublikanın Neft və qaz sənayesinin inkişafındakı xüsusi xidmətlərinə görə "Fəxri Fərman"la təltif olunmuşdur.

Firudin Məhəmmədəli oğlu Hacıyevin əziz xatirəsi bütün neftçi-geoloqların, onun həmkarlarının, tələbələri və yaxınlarının qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**